# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 12

Bakı şəhəri "14" aprel 2017 il

**Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında**

"Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 6-cı və 7-ci hissələrinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 aprel tarixli 243s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası energetika nazirinin müavini (G. Cavadova) tapşırılsın:

1.1. "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 aprel tarixli 243s nömrəli Sərəncamının icrasına ümumi rəhbərlik etsin;

1.2. əhalinin elektrik enerjisinə artan tələbatının təmin edilməsi məqsədilə 2018–2020-ci illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrindəki dövlət investisiya proqramlarında Bakı şəhərində 220 kV-luq üç yarımstansiyanın tikintisi və maliyyələşdirilməsinin nəzərdə tutulması ilə bağlı təkliflərin hazırlanması məqsədi ilə Dövlət Enerji Nəzarəti İdarəsini, Azərbaycan Respublikasının Maliyyə Nazirliyini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyini və "Azərenerji" ASC-

ni cəlb edərək İşçi Qrupun yaradılması ilə bağlı 20 gün müddətində tədbirlər görsün;

1.3. sahibkarların tələb olunan gücü 150 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması prosedurunun sadələşdirilməsi, bununla bağlı tələb olunan müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması məqsədi ilə, "Azərenerji" ASC-ni və "Azərişıq" ASC-ni cəlb edərək İşçi Qrupun yaradılması ilə bağlı 20 gün müddətində tədbirlər görsün və İşçi Qrup tərəfindən hazırlanmış təklifləri iki ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

1.4. bu əmrin 2.1-ci və 2.2-ci bəndlərində qeyd olunmuş məlumatları aldıqdan sonra, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə Texniki Şuraların yaradılması ilə bağlı 2 gün müddətində tədbirlər görsün və bu barədə 5 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsini təmin etsin.

2. Dövlət Enerji Nəzarəti İdarəsinə (C.Hüseynova) tapşırılsın:

2.1. Texniki Şuralarının fəaliyyətlərinə birbaşa rəhbərliyi və nəzarəti həyata keçirsin;

2.2. Texniki Şuraların tərkibinin müəyyənləşdirilməsi məqsədi ilə namizədlər barədə məlumatın Elektroenergetika şöbəsinə çatdırılmasını təmin etsin;

2.3. Texniki Şuralarının fəaliyyəti ilə bağlı Təlimatı 10 gün müddətində hazırlasın.

3. Elektroenergetika şöbəsinə (A.Mürsəliyevə) tapşırılsın:

3.1. Texniki Şuraların dislokasiyalarının müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumatların alınmasını 1 gün müddətində təmin etsin;

3.2. Texniki Şuraların tərkibinin müəyyənləşdirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarından və qurumlarından nümayəndələrin ayrılması ilə bağlı məlumatların alınmasını 2 gün müddətində təmin etsin;

4. Hüquqi münasibətlər şöbəsinə (İ.Ağayevə) tapşırılsın:

4.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlanması məqsədi ilə Elektroenergetika şöbəsini, Dövlət Enerji Nəzarəti İdarəsini, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyini, "Azərenerji" ASC-ni, "Azərişıq" ASC-ni və "Azəristiliktəchizat" ASC-ni cəlb edərək İşçi Qrupun yaradılması ilə bağlı 20 gün müddətində tədbirlər görsün və İşçi Qrup tərəfindən "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin yeddi ay müddətində hazırlanmasını təmin etsin;

4.2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsini hazırlayarkən beynəlxalq təcrübəni, Avropa İttifaqının 3-cü energetika paketinin nəzərə alınmasını təmin edilsin və hazırlanma prosesinə beynəlxalq təşkilatların və maliyyə qurumlarının cəlb olunması zəruriliyi araşdırılsın və bu barədə təkliflər verilsin.

5. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə (B.Rzayevə) tapşırılsın ki, rayon və şəhərlər üzrə enerji təchizatı şəbəkələrinin hər bir yarımstansiya və transformator məntəqəsi, habelə onlarda olan sərbəst güclər və qoşulma imkanları haqqında

məlumatların (mütəmadi yenilənməklə) bir ay müddətində Azərbaycan Respublikasının Energetika Nazirliyinə verilməsini təmin etsin;

6. Elektron idarəetmə və informasiya şöbəsinə (C.İbrahimova) tapşırılsın:

6.1. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayon və şəhərlər üzrə enerji təchizatı şəbəkələrinin hər bir yarımstansiya və transformator məntəqəsi, habelə onlarda olan sərbəst güclər və qoşulma imkanları haqqında verilən məlumatların (mütəmadi yenilənməklə) Nazirliyin rəsmi internet saytında yerləşdirilməsini 2 ay müddətində təmin edilsin və bu işlərin həyata keçirilməsi ilə bağlı mütəxəssislərin cəlb olunması zəruriliyi araşdırılsın və bu barədə təkliflər verilsin;

6.2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə sahibkarların tələb olunan gücü 150 kVt-a qədər olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə-smeta sənədlərinin alınması üçün elektron qaydada müraciət edilməsini 20 gün müddətində təmin etsin;

6.3. bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətinin Nazirliyin aparatının aidiyyəti şöbələrinə, Dövlət Enerji Nəzarəti İdarəsinə, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə və “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinə çatdırılmasını təmin etsin.

8. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir Natiq Əliyev